*“Metafizika” Journal*
*Vol 8, issue 4, serial 32, 2025. pp.171-183*
*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*
**UDC:** 070; 49
**LBC:** 66.0; 66.1; 76.01
**MJ №** 307
10.33864/2617-751X.2025.v8.i4.171-183

# RELIGION AND PHILOSOPHY IN THE PHILOSOPHY OF ṢADR AD-DĪN SHĪRĀZĪ

**Aladdin Malikov***
**Ibrahim Baghirov****

**Abstract.** The relationship between philosophy and religion is considered one of the most significant and complex issues in the history of human thought. In Islamic intellectual tradition, this problem has been actively discussed, particularly in the context of the relationship between reason and revelation. Whether there is a contradiction between philosophy and religion, or whether they should be regarded as different paths leading to the same truth, has occupied the minds of many Islamic philosophers. Among the prominent Muslim thinkers who addressed this issue, Ṣadr ad-Dīn Shīrāzī, a major philosopher of the 17th-century Safavid period, stands out. This paper explores the relationship between religion and philosophy, reason and revelation in the philosophical worldview of Ṣadr ad-Dīn Shīrāzī. With the translation and spread of ancient Greek philosophical heritage in the Islamic world, the philosophy–religion issue emerged as a major topic, and its nature has been interpreted in various ways by different thinkers. Shīrāzī paid special attention to this matter, emphasizing that philosophy and religion originate from the same source, and that the apparent contradiction between them is due to the limitations of human understanding. He viewed reason both as the foundation of faith and as a complement to revelation, and he defended the inseparable connection between true knowledge and belief. The paper demonstrates how, within the framework of Shīrāzī’s “Transcendent Philosophy,” the relationships among reason, faith, mysticism, and religious law are reconciled. The author also highlights that Shīrāzī upheld the principle of harmony with the Qur’an and Sunnah in his approach to philosophy and mysticism, while noting that certain truths can only be grasped through inner, esoteric knowledge. By analyzing the core elements of Shīrāzī’s religious-philosophical system, the paper demonstrates the possibility of harmony between philosophy and religion.

**Keywords:** Philosophy and religion, Islamic philosophy, transcendent philosophy, Mulla Sadra

---

* Doctor of Philosophy in Philosophy, Associate Professor,
Scientific Researcher at "AcademyGate Publishing" (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
** PhD candidate and research fellow at the Institute of Oriental Studies of ANAS; Baku, Azerbaijan
E-mail: i.bagirov@oriental.science.az
https://orcid.org/0000-0002-2976-2119

**To cite this article:** Malikov, A., & Baghirov, I. [2025]. RELIGION AND PHILOSOPHY IN THE PHILOSOPHY OF ṢADR AD-DĪN SHĪRĀZĪ. *“Metafizika” journal*, *8*(4), pp.171-183.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.171-183

**Article history:**
*Received: 31.05.2025*
*Accepted: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070; 49
**ББК:** 66.0; 66.1; 76.01
**MJ №** 307
10.33864/2617-751X.2025.v8.i4.171-183

# РЕЛИГИЯ И ФИЛОСОФИЯ В ФИЛОСОФИИ САДРАДДИНА ШИРАЗИ

**Аладдин Маликов***
**Ибрагим Багиров****

**Абстракт.** Связь между философией и религией считается одной из важнейших и самых сложных проблем в истории человеческой мысли. В исламской мысли эта проблема особенно активно обсуждалась в контексте соотношения разума и откровения. Наличие или отсутствие противоречия между философией и религией, а также вопрос о том, следует ли рассматривать их как разные пути, ведущие к одной истине, находились в центре внимания многих исламских философов. Одним из важнейших мусульманских философов, отличившимся своим подходом в этом направлении, является Садраддин Ширази, великий философ эпохи Сефевидов XVII века. В данной статье исследуются отношения между религией и философией, разумом и откровением в философском мировоззрении Садраддина Ширази. С переводом и распространением древнегреческого философского наследия в исламском мире проблема соотношения философии и религии вышла на повестку дня, и суть этих отношений по-разному объяснялась различными мыслителями. Ширази уделяет особое внимание данному вопросу, подчеркивая, что философия и религия происходят из одного источника, а противоречие между ними возникает на самом деле из-за ограниченности человеческого познания. Он рассматривает разум как основу веры и как дополнение откровения, утверждая существование неразрывной связи между истинным знанием и верой. В статье показано, как в рамках «трансцендентной философии» Ширази согласуются отношения между разумом, верой, ирфаном и шариатом. Автор также подчеркивает, что Ширази выдвигает принцип соответствия с Кораном и сунной как основной критерий в подходе к философии и ирфану, хотя и указывает на то, что некоторые знания могут быть постигнуты только через внутреннее (батинное) восприятие. Статья, анализируя основные положения религиозно-философской системы Ширази, демонстрирует возможность гармонии между философией и религией.

**Ключевые слова:** Философия и религия, исламская философия, трансцендентная философия, Молла Садра

---

* Доктор философии по философии, доцент,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
** Докторант и научный сотрудник Института востоковедения НАНА; Баку, Азербайджан
E-mail: i.bagirov@oriental.science.az
https://orcid.org/0000-0002-2976-2119

**Цитировать статью:** Маликов, А., & Багиров, И. [2025]. РЕЛИГИЯ И ФИЛОСОФИЯ В ФИЛОСОФИИ САДРАДДИНА ШИРАЗИ. *Журнал «Metafizika»*, *8*(4), с.171-183.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.171-183

**История статьи:**
*Статья поступила в редакцию: 31.05.2025*
*Отправлена на доработку: 29.06.2025*
*Принята для печати: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070; 49
**KBT:** 66.0; 66.1; 76.01
**MJ №** 307
10.33864/2617-751X.2025.v8.i4.171-183

# SƏDRƏDDİN ŞİRAZİ FƏLSƏFƏSİNDƏ DİN VƏ FƏLSƏFƏ

**Əlǝddin Məlikov***
**İbrahim Bağırov****

**Abstrakt.** Fəlsəfə və din arasında olan əlaqə insan düşüncə tarixinin ən mühüm və mürəkkəb məsələlərindən biri hesab olunur. İslam düşüncəsində bu problem xüsusilə ağıl və vəhy münasibəti kontekstində fəal şəkildə müzakirə edilmişdir. Fəlsəfə ilə din arasında ziddiyyətin olub-olmaması, onların eyni həqiqətə aparan fərqli yollar kimi dəyərləndirilib-dəyərləndirilməməsi bir çox İslam filosoflarının diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə olan yanaşması ilə seçilən ən mühüm müsəlman filosoflardan biri də XVII əsr Səfəvi dövrünün böyük filosofu Sədrəddin Şirazidir. Bu məqalədə Sədrəddin Şirazinin fəlsəfi dünyagörüşündə din və fəlsəfə, ağıl və vəhy münasibətləri araşdırılır. İslam dünyasında qədim yunan fəlsəfi irsinin tərcüməsi və yayılması ilə fəlsəfə-din problemi gündəmə gəlmiş, bu münasibətin mahiyyəti müxtəlif mütəfəkkirlər tərəfindən fərqli şəkildə izah edilmişdir. Şirazi bu məsələyə xüsusi diqqət yetirərək, fəlsəfə və dinin eyni mənşədən qaynaqlandığını, onların arasında ziddiyyətin əslində insan idrakının məhdudluğu səbəbilə yarandığını vurğulayır. O, ağlı həm imanın əsası, həm də vəhyin tamamlayıcısı kimi qiymətləndirir və əsl bilik və iman arasında ayrılmaz bir əlaqənin olduğunu müdafiə edir. Məqalədə Şirazinin “mütəaliyə fəlsəfəsi” çərçivəsində ağıl, iman, irfan və şəriət arasında münasibətlərin necə uzlaşdırıldığı göstərilir. Müəllif həmçinin Şirazinin fəlsəfəyə və irfana yanaşmasında Quran və sünnə ilə uyğunluq prinsipini əsas meyar kimi irəli sürdüyünü, lakin bəzi biliklərin yalnız batini idrakla dərk oluna biləcəyini qeyd etdiyini vurğulayır. Məqalə Şirazinin dini-fəlsəfi sisteminin əsas məqamlarını təhlil etməklə fəlsəfə ilə din arasında harmoniyanın mümkünlüyünü nümayiş etdirir.

**Açar sözlər:** fəlsəfə və din, islam fəlsəfəsi, transsedent fəlsəfə, Molla Sədra

---

* fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
“AcademyGate Publishing”-in elmi tədqiqatçısı (ISNI: 0000000514175052); Bakı, Azərbaycan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
** AMEA Şərqşünaslıq İnstitutunun dissertantı və elmi işçisi; Bakı, Azərbaycan
E-mail: i.bagirov@oriental.science.az
https://orcid.org/0000-0002-2976-2119

**Məqaləyə istinad:** Məlikov, Ə., & Bağırov, İ. [2025] SƏDRƏDDİN ŞİRAZİ FƏLSƏFƏSİNDƏ DİN VƏ FƏLSƏFƏ. *“Metafizika” jurnalı, 8*(4), səh.171-183.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.171-183

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 31.05.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 29.06.2025*
*Çapa qəbul edilmişdir: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Fəlsəfə və dinin insan həyatının mənasını anlamaq, onu mənəvi və əqli cəhətdən kamilliyə çatdırmaq kimi ortaq məqsədləri paylaşması, bu iki sahə arasında müəyyən bir əlaqənin mövcudluğunu göstərir. Hər iki sahə Tanrı, kainat və insan mövzularını öz mərkəzinə alaraq həqiqətin izinə düşür. Bu kimi bir-sıra ümumi maraqlara baxmayaraq, din ilə fəlsəfə arasındakı münasibətlər tarix boyu həmişə aydın və birmənalı olmamış, zaman-zaman fərqli yanaşmalar və ziddiyyətli mövqelərin ortaya qoyulmasına vəsilə olmuşdur. Bu münasibətlərin xarakteri bir çox mütəfəkkirin diqqətini cəlb etmiş və müxtəlif fəlsəfi mövqelərin formalaşmasına səbəb olmuşdur.

Fəlsəfə və din arasındakı münasibət hər zaman filosofları düşündürən ən mürəkkəb və mübahisəli məsələlərindən biri olmuşdur. Fəlsəfə ilə dini uzlaşdırmaq və ya onların bir-birilə əlaqəsini müəyyən etmək üçün müxtəlif dövrlərdə filosoflar və din alimləri fərqli yanaşmalar irəli sürmüşlər. Dini düşüncənin hakim olduğu islam coğrafiyasındakı mütəfəkkirlər də bu məsələyə xüsusi əhəmiyyət vermişlər, çünki həqiqət iddiasında olan ağıl (fəlsəfə) və vəhy (din) arasında harmonik əlaqənin qurulması müsəlman mütəfəkkirlər tərəfindən vacib hesab edilmişdir. Kindi, Fərabi, İbn Sina, İbn Rüşd və başqa müsəlman filosofların yaradıcılığına nəzər salsaq bu məsələyə verdikləri əhəmiyyətin şahidi ola bilərik. Bu məsələyə islam filosofları arasında böyük əhəmiyyət verən filosoflardan biri də irəli sürdüyü orijinal fəlsəfi nəzəriyyələrlə [Məlikov və Bağırov, 2022; Bağırov, 2025] islam fəlsəfəsinin istiqamətini dəyişən [Məlikov və Bağırov, 2022, s.11] XVII əsr Səfəvi filosofu Sədrəddin Şirazi olmuşdur.

Sədrəddin Şirazinin dünyagörüşünə əsasən fəlsəfə və din və ya ağıl və vəhy eyni qaynaqdandır. Eyni qaynaqdan olduqları üçün, ona görə, ağıl və vəhy bir-birini təsdiq etməlidir. Ona görə ki, bir-birinə zidd olan, bir-birini tamamlamayan və ya bir-birini təsdiq etməyən iki şeyin vahid bir qaynaqdan əmələ gəlməsi mümkün deyil. Təbii ki, bu iddianı birmənalı qəbul etmək doğru olmaz və əsaslandırma tələb edir. Həqiqətənmi dinlə fəlsəfənin arasında heç bir ziddiyyət yoxdur və onlar eyni qaynaqdan meydana gəliblər? Belə bir iddianın doğru ola bilməsi üçün ağlın dini mülahizələri və ya doğruları təsdiq etməsi zəruridir. Vəhy və nübuvvət rasional, məntiqi dəlillərlə sübuta yetdiyi və təsdiq olduğu zaman, ağıl və din arasında ziddiyyətin olmamasında və onların birliyindən danışmaq mümkün olar.

Şirazinin din-fəlsəfə münasibətinə dair görüşləri iki əsas mülahizə ilə xülasə edilə bilər:

1. Dini təlimlər ağıla zidd deyil, əksinə, ağlın qavraya biləcəyi həqiqətlərdir.
2. Ağıl və iman bir-birini tamamlayır.

O, ağlın rolunu iki cəhətdən qiymətləndirir:

1. İmanın əsası kimi: Ağıl insanı ilahi həqiqətə çatdıran vasitədir.
2. Vəhyin tamamlayıcısı kimi: Sağlam ağıl heç vaxt dinlə ziddiyyətə düşməz; əksinə, dini həqiqətləri təsdiq edir.

Şirazi əsərlərində həqiqi ağlın dini həqiqətlərlə zidd gəlməyəcəyi fikrini təkrar-təkrar qeyd edir. O, bu kimi məqamların ortaya çıxmasını insan ağlının naqisliyi ilə izah edir.

Ona görə, insanlar bir şeyi iki səbəbdən inkar edirlər:

1. Təcrübə ilə mümkünsüzlüyünü gördükdə (məsələn, ağıla zidd hadisə ilə qarşılaşanda).
2. Cahilliyə görə (yaşamadığı və anlamadığı bir şeyi rədd etdikdə).

Birinci halda inkar məntiqlidir, lakin ikincisində əsassızdır.

Nəticə etibarilə, Şirazi dinin ağılla uyğunsuzluğunu qəbul etmir. Onun fikrincə, hər hansı elmi və ya fəlsəfi nəticə dinlə ziddiyyət təşkil edirsə, bu, ya düzgün anlaşılmadığını, ya da çatışmazlıq olduğunu göstərir.

Məqalənin növbəti başlıqlarında fəlsəfə ilə dini prinsip olaraq eyniləşdirən Şirazini fikirləri daha geniş şəkildə təhlil olunur.

**2.S.Şirazi düşüncəsində ağıl-iman münasibəti**

İslam dünyasında qədim yunan fəlsəfəsinin ərəbcəyə tərcümə olunaraq yayılması ilə birlikdə fəlsəfə və din arasındakı münasibətlər xüsusilə ağıl ilə vəhy, yaxud şəriət arasında əlaqə kontekstində araşdırılmağa başlanmışdır. Xüsusilə peripatetik filosofların əsərləri vasitəsilə yunan düşüncəsinin müsəlman intellektual mühitinə daxil olması, bu sahədə müxtəlif reaksiyaların yaranmasına səbəb olmuşdur. Fəlsəfi düşüncənin qəbul olunması və ya rədd edilməsi, ümumilikdə fəlsəfə-din münasibətlərinə dərin təsir göstərmiş və bu əlaqənin formasını müəyyənləşdirmişdir. Bu səbəbdən, islam fəlsəfə tarixindəki dalğalanmaları, əsasən fəlsəfəyə qarşı sərgilənən mövqelərlə izah etmək mümkündür.

Öz bütün səylərini imanla ağlın həmahəngliyini isbat etmək üçün sərf edən müsəlman filosoflar yunan mənşəli olmasını əsas gətirərək fəlsəfəyə qarşı çıxmağı qeyri ciddi və qeyri elmi yanaşma hesab edirdilər. Bütün bunlarla yanaşı İslam filosofları insanın səhvsiz olmadığının və istənmədən də olsa düşüncəsində yanlışlıqlara yol verə biləcəyinin fərqində olaraq keçmiş filosofların xətalarını düzəltməyə və fəlsəfəni mümkün olduğu qədər islami təlimlərlə uyğunlaşdırmağa cəhd etmişlər.

Emil Berhiye (1926-1932) bu barədə belə yazır:

“Baxmayaraq ki, müsəlmanlar tərəfindən yunan fəlsəfəsinə müraciət ilk başda bəlkə də təkcə dini məsələlərin isbatı və kəlam elminin problemlərini həll etmək üçün deyildi və məntiq və fəlsəfə ilə yalnız ruhanilər məşğul olmurdular, hətta bəzi imanlı şəxslər də məntiq və fəlsəfəyə faydasız elmlər kimi baxırdılar. Ancaq İslam filosofları həmişə çalışırdılar ki, fəlsəfi mövzuları elə açıqlasınlar ki, İslam dini ilə uzlaşsın, ya da ən azından onunla açıq-aşkar

ziddiyyət təşkil etməsin. Əlbəttə sonralar dinlə fəlsəfə arasındakı uyğunluğa və ya neoplatonçu və işraqi elementlərə diqqət işraq fəlsəfəsi məktəbinin banisi Şəhabəddin Sührəvərdi, Nəsrəddin Tusi, və Sədrəddin Şirazi kimi filosoflarda daha da artdı [Berhiye, 1380, 142-144].

Fəlsəfə və irfanın vəhy və Quranla uyğunlaşdırılması cəhdləri özünün kulminasiya nöqtəsinə Sədrəddin Şirazinin mütəaliyə fəlsəfəsində çatmışdır. O, "Əsfar" kitabının girişində kəşf və ilham yolu ilə əldə olunan bilik haqqında belə yazır:

> "*Uzun sürən cəhdlər və nəfsi tərbiyə nəticəsində qəlbim parladı və mələklər və ruhlar (mələkkut) aləminin nuru ilə doldu... Sonra elə sirlərdən agah oldum ki o vaxta qədər buna nail olmamışdım. Elə sirlər mənə məlum oldu ki, dəlil yolu ilə bu qədər aşkar olmamışdı. Bəlkə də dəlil yolu ilə çatdığım hər şeyi bəsirət gözü ilə aydın gördüm*" [Berhiye, 1380, c1, s.8].

Dinlə fəlsəfəni birləşdirmək, onlar arasında olan ziddiyyətli məqamları aradan qaldıraraq ikisinin harmoniyasına nail olmaq səyləri Sədrəddin Şirazi fəlsəfəsində özünün ən yüksək apogeyinə çatdı. Hətta Sədrəddin Şirazi özünün "mütəaliyə fəlsəfəsini" Quran, irfan və fəlsəfənin təcəlligahı, qovuşub ahəng tapdığı bir yer olaraq görür və bunu açıq şəkildə ifadə edirdi:

> "Haqq olan şəriət ehkamı necə yəqini və zəruri olan hikmətlə uyğun gəlməyə bilər! Quran və sünnətə uyğun gəlməyən fəlsəfə məhv olsun!" [Berhiye, 1380, c8, s.303].

Sədrəddin Şirazi imanın ağıl və təsdiqlə eyniliyini iman barəsində bəyan olunanlardan istifadə edərək əsaslandırmağa çalışır:

**1.** İmanın yerinin qəlb olmasını qeyd edən ayələrdən.

**2.** Bir çox ayələrdə saleh əməlin imanla əlaqələndirilməsi əməlin imandan kənar olmasının nişanəsidir.

**3.** Bəzi ayələrdə iman günahla birləşdirilmişdir. Yəni fasiq və günahkar mömin adlandırılmışdır. Bu əməlin imandan ayrı olmamağına dəlalət edir.

**4.** "Dində məcburiyyət yoxdur" [Quran, Əl-Bəqərə:256] ayəsindən aydın olur ki, iman qəlbdə olur və əməldə olduğu kimi, məcburiyyəti qəbul etmir.

**5.** İman lüğətdə təsdiq mənasındadır. Əgər digər mənada işlədilərsə, Quranın ərəb dilində olması ilə ziddiyyət təşkil edər. Bir halda ki, onun mənasının əvvəllər dəyişməsi yayılmış olsun.

**6.** Yəqini təsdiqi elm sabit olduğuna görə imana layiqdir. Buna görə o belə yazır:

> "Burada üç şey arasında fərq qoyulmalıdır. Birincisi biliklər, ikincisi nəfsani (mənəvi) hallar və üçüncüsü xarici əməllər (bədən üzvləri ilə yerinə yetirilən əməllər). Biliklərə Allah və rəsulunu tanımaq, hallara dünya və nəfsani şəhvətlərlə əlaqəni kəsmə halları, əməllərə isə ibadət və itaəti nümunə göstərmək olar. Zahirə diqqət edənlərə görə tanıma

> (elm) əməl üçündür. Lakin batin əhlinə görə əməl tanıma (elm) üçündür və özü-özlüyündə əməlin dəyəri yoxdur. Çünki fel və infial dəyərsizlikdən başqa bir şey deyil. Hallar da dəyərsiz olan qüvvə və yoxluqlardır. Amma biliklər ontoloji həqiqətlərdir və hər növ dəyişiklikdən uzaqdır. Deməli əməlin islah edilməsinin faydası qəlbin islahıdır və qəlbin islah edilməsi Allahın zatının (həmin şəxs üçün) aşkarlanmasıdır. Beləliklə, Allah və rəsuluna iman ilahiyyata olan həmin elmdir” [Shirazi, 1366, c1, s. 249; Məlikov, 2019, s.52].

Başqa bir yerdə isə belə yazır:

> “Fəlsəfənin bu bölməsi- başlamaq istədiyimiz xüsusi mənada olan ilahiyyat- fəlsəfənin ən üstün bölməsidir və Allaha, rəsuluna və qiyamət gününə olan həqiqi imana işarə edən “İman gətirən bütün möminlər Allaha, Onun mələklərinə, kitablarına və peyğəmbərlərinə iman gətirmişlər” [Quran, Əl-Bəqərə: 285] ayəsi buna işarədir [Shirazi, 1383, s.9].

Qeyd edilənlərdən belə aydın olur ki, imanla təsdiq məfhumlarının bərabərliyinə olan inanc şiə alimlərinin əksəriyyəti tərəfindən qəbul edilir. Şiə alimləri təsdiq sözünün idrak və bilik mənasında olduğu fikrindədirlər.

Sədrəddin Şirazi ağıl və fəlsəfəni bu qədər müdafiə etməsinə baxmayaraq, heç vaxt bu bilik kanalının varlıq aləminin bütün həqiqətlərini tanımaq üçün kifayət etdiyini qəbul etməmişdir. Belə ki, o, irfan vasitəsilə əldə edilən bir çox həqiqətlərin ağlın gücündən kənarda qaldığını və onları tanımağın yeganə yolunun (batini) müşahidə olduğunu qəbul etdiyi kimi bir çox vəhy həqiqətlərinin də ağlın qüdrətindən kənarda olduğunu, onları tanımağın yeganə yolunun vəhy və nübuvvət olduğunu bildirmişdir [Shirazi, 1383, s.479; 1366, s.10].

Göründüyü kimi, Sədrəddin Şirazi insan ağlının məhdud olmasına inanır. Onun baxışına görə bəşəriyyətin ən üstün elmi və əqli şəxsləri öz nəfsini dərk etməkdə acizdir. O ki qaldı, yerin, göyün, yaradılış aləminin həqiqətləri və fitrət möcüzəsinin dərk edilməsi. Filosofa görə insan yalnız məhdud ağlına əsaslanaraq bütün varlıq aləmində mövcud olan maddi və qeyri-maddi varlıqlar barəsində tam biliyə sahib ola bilməz. O deyir:

> “İnsan öz mahiyyətini lazımınca qavramadığı halda maddi və mənəvi aləmin həqiqətini necə tam dərk edə bilər”.

Həmçinin belə yazır:

> “Ağıl təsəvvür və təsdiq olmaqla hər iki növdə elmlərin təməli və inanclar üçün batini dəlildir. Allahın peyğəmbər və imamlarının zahiri höccət olduqları kimi” [Shirazi, 1383, c1 s.20].

O ağlın dəlil olması ilə bağlı qeyd edir ki, “ağıl mütləq mənada dəlil olmaq xüsusiyyətinə sahib deyil. Bəzi hallarda isə ümumiyyətlə dəlil deyil” [Shirazi, 1383, c1 s.21].

Tövhid və Allaha iman ağla bağlı olduğu üçün bu məsələlərdə şəriətə əsaslanmaq olmaz. Çünki əks təqdirdə qapalı dairə problemi yaranacaq. Filosofun fikrincə bu mövzu nübuvvət və imamətə aid ümumi anlayışlar və digər tövhidlə bağlı məsələlər də daxil olmaqla ağlın əhatə dairəsinə daxildirlər. Peyğəmbər burada yalnız xatırladıcı (müzəkkir) rolunu oynayır. Amma xüsusi nübuvvət və imamətlə bağlı məsələlər (konkret bir peyğəmbər və ya imamın peyğəmbər və ya imamlığı) isə həm ağıl həm də nəql olmaqla hər iki yolla bilinə bilər [Shirazi, 1383, c1 s.22].

**3.Fəlsəfə peyğəmbərlərin istəyidir**

Sədrəddin Şirazi fəlsəfəni insanın ruhunu kamilləşdirərək onun bacarığı ölçüsündə, təqlid və gümanla deyil, əsaslandırılmış şəkildə əşyaların həqiqətini olduğu kimi anlamağı təmin edən bir elm kimi görür.

«هذا الفن من الحكمة هو المطلوب لسيد الرسل المسئول فى دعائه (ص) حيث قال: «رب ارنا الاشياء كما هى» وللخليل (ع) ايضاً حين سأل «رب هبلى حكماً» والحكم هو التصديق بوجود الاشياء».

O əlavə edərək yazır:

> “İman gətirən kəslərdən savayı” ayəsi nəzəri fəlsəfəyə, “saleh işlər görərlər” isə praktik fəlsəfəyə işarə edir [Shirazi, 1383, c1, s.20-21].

O başqa bir yerdə bu məsələyə işarə edərək deyir ki, Allahı tanımaq, ölüm sonrası həyatın həqiqətinə varmaq, və s. kimi məsələlər adi bir insanın yaxud da alimin genetik yolla və ya təqlid vasitəsilə əldə edə biləcəyi inanclar deyildir. Həqiqətin yolu böyük metafizik və həkimlərə açıq odluğu kimi o insanların üzünə də açıq deyil. Bu insanlar Tanrı, axirət və bu qəbildən olan ariflərin askez praktikası və ya intuitiv təcrübə ilə idrak etdikləri şeylər haqqında təsəvvür sahibi deyillər. Həmçinin əlavə edir ki, belə tanıma Allahın möminin qəlbinə saçdığı ilahi bir nura bənzəyir(Shirazi, 1999, s.9].

Bu onu göstərir ki, Şirazi fəlsəfi məktəbində ağılla iman yaxud fəlsəfə ilə din arasında möhkəm bir bağlılıq vardır. Ona görə həqiqi tanıma, yalnız isbatla və irfanla olan tanımadır. Təkcə diskursiv düşünmə ilə kifayətlənməyib intuitiv təcrübə ilə də dəstəklənən bilik insanın yolunu nur kimi işıqlandıraraq hədəfinə çatdıra bilər. Transendental fəlsəfədə də nəzərdə tutulan bilik bu cür bir bilikdir.

Sədrəddin Şirazi başqa bir yerdə fəlsəfənin nəfsin nəzəri qüvvəsini kamilləşdirdiyini, həqiqi mərifət və elmlərin əldə etməyə vəsilə olduğunu vurğulayaraq yazır:

> “*Bu elmlə irfan yolunun yolçuları elm və iman kəbəsinə doğru yol alaraq çətinliklər və azğınlıqlar zindanından səadət bağçasına çatıb, Həzrəti Rəhmanla qonşu olmaqla xilas olacaqlar. Bu elmlə Həzrəti Rəhmanı tanımağa səbəb olacaq nurani kəlmələri, mənəvi varlıqları və mələklər və ruhlar aləminin şöləsini əldə edəcəklər*” [Shirazi, 1383, c1, s.90].

Bu ifadələr kifayət qədər aydın bir şəkildə göstərir ki, bu elm bizim Allahın kəlamını başa düşməyimizə səbəb olur. O,

«يؤتى الحكمة من يشاء»

“istədiyinə hikmət bəxş edir” ayəsinin təfsirində belə deyir: Bu hikmət elə bir nurdur ki, insan ona ancaq təqva və günahdan çəkinməklə və ya Tanrının insana inayəti ilə çata bilər [Shirazi, 1383, c1, s.10].

S.Şirazi

«ان للقرآن ظهراً وبطناً»

“Həqiqətən, Quranın zahiri və batini vardır” hədisinin təfsirində yazır: Quranın da insanın mənəvi mərtəbələri kimi gizli və aşkar tərəfləri vardır. Zahiri olan Quran əllə toxuna, gözlə görə bildiyimiz kitabdır. Amma batini Quran maddi hiss üzvləri vasitəsilə qavramağa əlverişli olmayıb xəyal kimi batini hisslərlə dərk olunmağa qabildir.

«والحسن الباطن لايدرک المعنی صرفا ًبل خلطاً مع غواش جسمانية وعوارض مقدارية الا انه ستثبته بعد زوال مادة المحسوس عن الحضور فهاتان المرتبتان من القرآن دنياويتان لما يدركه كل انسان بشرى اما باطنه وسره فهما مرتبتان اخروايتان»

[Shirazi, 1383, c7, s.37].

İnsan maddi dünyanın mühasirəsində olduğu üçün ancaq bu iki mərtəbə onun üçün dərk oluna biləndir [Shirazi, 1383, c7, s.37]. Quranın batininin digər mərhələlərinin dərki isə ancaq insanın maddi bağlılıqlardan qurtulduğu zaman mümkündür. Həmçinin o, dərkin dərəcəsini insanın ruhunun qüdrətinin ölçüsündə görür. Ruh maddi mərtəbədə olduğunda və ya maddi mərtəbəyə endiyində maddi, hissi idrakı aktiv olur. Maddədən uzaqlaşıb xəyal və fərdi surətlər aləminə yaxınlaşdığı yaxud mücərrədləşdiyi zaman daha çox bilik əldə etmək imkanı yaranır [Shirazi, 1383, c7, s.38].

Digər tərəfdən S.Şiraziyə görə bəzi dini-irfani kamal mərtəbələri, belə demək mümkünsə, ağıldan “qaçır” və ya ağıl bu həqiqətləri qavramağa meyl göstərmir. Elə həqiqətlər vardır ki, birbaşa mahiyyətləri baxımından əqli idrakın hüdudlarından kənarda, onun fövqündə yerləşirlər. Amma ağlın əhatə dairəsindən kənarda olması, o anlayış və həqiqətlərin ağla zidd olması demək deyil: “Vilayət və irfan dairəsində ağlın dərk edə bilmədiyi şeylərin olması mümkündür. Ağlın hüdudlarından kənarda olduğu üçün ağıl vasitəsilə başa düşülməyən şeylərlə ağla zidd şeylər arasında fərq qoya bilməyənlərə gəlincə isə vaxt ayırıb onlardan danışmağa dəyməz və belə şəxslərə baş qoşulmamalıdır ” [Shirazi, 1383, c2, s.322-323].

Bəzi şəxslər Şirazinin bir sıra dini anlayışların ağlın anlayış çərçivəsindən kənarda olmasını iddia etməklə insanlarda din sevgisini azaltdığını düşünürlər.

Təəccüblüdür ki, bəzi əqli və fəlsəfi məsələlər sahəsində fikir sahibləri və şəriətə də inanan tanınmış şəxslər də bəzən istəmədən belə olsa şəriət əleyhdarlığı ifadə edən sözlər söyləmişlər.

Sədrəddin Şirazi dünyəvi, məcazi eşq haqqında olan qeydlərində gözələ məhəbbət bəsləyib, gözəlliyə tamaşa etməyin heyvani şəhvət duyğularından qaynaqlanmadığı surətdə bəyənilən olduğunu göstərməyə çalışaraq, həqiqət səfərinin başlanğıcında onu yerinə yetirməyin təqdirə layiq olduğunu deyir [Shirazi, 1383, c7, s.171-175].

Bu yanaşma ilə belə baxışı haram hesab edən şəriət hökmü arasında aşkar ziddiyyətin fərqinə varan Həkim Molla Hadi Səbzəvari bu iki fikri uzlaşdırmağa çalışaraq, onların birliyinin "əmr və qadağanın cəmi"ndəki kimi olduğunu söyləyərək uyğunsuzluğu həll etməyə çalışır. (Buna uyğun misal üsuli fiqh elmində bəyan edilən "qəsbi evdən xaric olmağa" bənzəyir. Əmr və inkarın birliyini mümkün hesab edənlərin baxışına əsasən icazə olmadan başqasının evinə daxil olmuşdur. Xaric olan zaman hər atdığı addım, başqasının malını istifadə etdiyindən haram və inkardır. Evdən xaric olmaq şəraitinin yaradılması isə vacib və əmrdir.)

Yəni, bu əməlin peyğəmbərin gətirdiyi şəritdə qadağan edilməsinə baxmayaraq, ariflər özlərinin kəşf və şühud hallarında işin aşkarda görünməyən müəyyən gizli bəyənilən tərəflərinin olduğunu da müşahidə edirlər. Eynilə bəzi fəqihlərin söylədiyi kimi bir cəhətdən bəyənilən və əmr olunan iş, digər tərəfdən bəyənilməyən və inkar edilə bilər.

«إن قلت: المشايخ يلتزمون التوفيق بين اوضاع الشريعة و الطريقة... وهذا الامر كيف يوافق الشريعة المطهرة؟ قلت: لعلّهم وجدوا رخصة من رموزها و دقائقها وجوّزوا اجتماع الامر والنهى كما جوّزه كثير من المتشرعة،... فشىء واحد مبغوض و مطلوب للشارع المقدس من جهتين. والله تعالى هو العالم بالأسرار»

[Shirazi, 1383, c7, s.158].

*"Əgər desən: şeyxlər şəriətin zahiri qaydaları ilə təriqətin tələblərini uzlaşdırmağa çalışırlar... bəs bu məsələ necə pak şəriətə uyğun ola bilər? Deyərəm: bəlkə onlar şəriətin rəmz və incəliklərində bu işə dair bir rüsxət (icazə) tapıblar və əmr ilə qadağanın bir arada olmasını caiz görüblər – necə ki, bir çox şəriətə bağlı şəxslər bunu caiz biliblər... belə ki, bir şey müqəddəs Şəriət qoyucusu (şari) tərəfindən iki fərqli baxımdan həm məzəmmətəlayiq, həm də istənilən ola bilər. Və sirləri ən yaxşı bilən Allah-Təaladır."*

Qeyd etmək lazımdır ki, bu qələm xətasını həkim Səbzəvarinin ümumi baxışına yazmaq olmaz. S.Şirazi də belə şəriət ehkamı ilə təriqət arasında fərqi bəyənmir və şəriətdən qaçan Sufilər haqqında ürəyi doludur. Özünün məşhur əsəri olan "Kəsru əsnamil-cahiliyyə" kitabında da zəmanəsinin sufilərini hədəf alaraq yazır:

> *"Bu şəxslər... sahib olduqları avamcasına etiqadlara görə... həqiqi elmlərdən və rəbbani biliklərdən uzaqdırlar. Onların bu qəbildən olan əqidələrinə, "Allah talanın bizim ibadətimizə ehtiyacı yoxdur. Elə isə onu yerinə yetirməyimizin nə faydası vardır?", "Şəriət hicabda (bəsirət gözü bağlı) olanlar üçündür, vüsala çatanlar üçün deyil", və "Şəriət*

*dəri kimidir, onu əzmədikcə sirlərə çatmaq olmaz” və s. mənasız sözlər nümunə verilə bilər* [Shirazi, Kəsru əsnamil cahiliyyə, s.26].

Digər tərəfdən S.Şirazi yenə də bu qəbildən olan məsələlərə diqqət edərək yazır ki, özü-özlüyündə müqəddəs hədəfə sahib olmayan elə vasitələr vardır ki, onlardan istifadə edildiyi zaman cəmiyyətin vəziyyəti, dünya görüşü yaxşı hesablanmadığı zaman qarşıya qoyulan hədəfə çatdırmaqdansa mənfi nəticələr verə, insanı həqiqətdən uzaqlaşdıraraq azmasına səbəb ola bilər. Buna görə hətta ayrılıq dərdindən və vüsal ləzzətindən bəhs edən şeir və qəzəllər də bəzən xəstələrə şəfa vermək yerinə, onların acısını daha da artıra bilir.

O, başqa bir yerdə öz zəmanəsinin dırnaqarası sufiləri haqqında belə deyir:

“*Bunlarınkı şeir məclisləridir. Onların şerləri də məşuqlarının gözəlliyindən, sevgililərinin cazibədarlığından, vüsal ləzzəti və ayrılıq hicrindən bəhs edir. İştirakçıları da əsasən qəlbləri şəhvət hisləri ilə dolub daşan, gözəl və cəlbedici simaları seyr etmək arzusu ilə alışıb yanan avam camaatdır. Buna görə də xüsusi musiqilərlə ifa olunan bu şeirlər gizli şəhvani hissləri oyatmaqdan və içlərində kök salan mənəvi xəstəlikləri gücləndirməkdən savayı bir işə yaramaz*” [Shirazi, Kəsru əsnamil cahiliyyə, s.27].

## 4.Nəticə

Sədrəddin Şirazinin fəlsəfi sistemi din və fəlsəfə, ağıl və vəhy, irfan və şəriət arasında dərin vəhdət yaratmaq məqsədi daşıyan mütəşəkkil və orijinal bir yanaşma ortaya qoyur. O, fəlsəfəni nə dinin əksi, nə də ondan üstün bir yol kimi deyil, onunla paralel və bir-birini tamamlayan həqiqət yolu kimi qiymətləndirir. Şiraziyə görə, ağıl iman üçün əsasdır və vəhyin doğruluğunu təsdiq etmək gücünə malikdir; eyni zamanda, bəzi həqiqətlər yalnız batini idrak və intuisiya ilə dərk oluna bilər. O, bu həqiqətləri anlamayanların ağlın hüdudlarından kənarda olanla ağla zidd olanı səhv saldığını vurğulayır.

Şirazinin transsendental fəlsəfəsi, yalnız nəzəri biliklə kifayətlənməyən, həm də intuitiv və mənəvi təcrübəyə əsaslanan bir fəlsəfədir. Bu baxımdan o, fəlsəfəni peyğəmbərlərin istəyinə uyğun bir elm kimi təqdim edir və onun məqsədini həqiqi iman və kamilliyə aparan bir yol olaraq dəyərləndirir. Bu yanaşma həm rasionalist, həm də mistik ünsürləri uzlaşdıraraq, İslam fəlsəfəsində din və fəlsəfə arasında yeni bir harmoniya modelini mümkün edir.

Beləliklə, Sədrəddin Şirazinin fəlsəfəsi din və fəlsəfə arasında əsrlərdir davam edən ziddiyyət və gərginliyi aradan qaldıraraq, bu iki sahənin ortaq məqsəd- həqiqətə və Tanrıya yönəli idrak- istiqamətində vəhdət içində inkişaf edə biləcəyini nümayiş etdirir. Onun irsi bu gün də din-fəlsəfə münasibətlərinə dair müasir müzakirələr üçün dəyərli bir nəzəri əsas kimi qalır.

## ƏDƏBİYYAT

1. Bağırov, İ. (2025). Nəfs-bədən problemi: “təzadlı dörtlük” və onun Sədrəddin Şirazi perspektivindən həlli. *History of Science* jurnalı, 6(1), 126–136. https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.126-136
2. Berhiye, E. (1380). *Tarikh-e Falsafe: Qorun-e Vosta va Dowre-ye Tajaddod* (Y. Mahdavi, Tərc., 2-ci çap). Tehran: Nashriye-ye Khwarazmi, 142–144.
3. Bréhier, É. (1926–1932). *Histoire de la philosophie* (Cild 1–7). Paris: Presses Universitaires de France.
4. Məlikov, Ə. (2019). Sədrəddin Şirazi fəlsəfəsində ağıl və iman münasibətlərinin təhlili. *Metafizika* jurnalı, *2*(1), 37–57. http://dx.doi.org/10.33864/MTFZK.2019.28
5. Məlikov, Ə., & Bağırov, İ. (2022). Sədrəddin Şirazinin fəlsəfi çevrilişi. *Metafizika* jurnalı, 5(1), 10–24. http://dx.doi.org/10.13140/RG.2.2.25707.41767
6. Shirazi, Sadraddin. (1366 h.). *Təfsirul-Quran*. Qum: Bidar.
7. Shirazi, S. (1383). *al-Hikmat al-mutaaliya fi al-asfar al-aqliyyat al-arbaa* (Cild 6). Tehran: SIPRIn Publications.
8. Shirazi, S. (1383). *al-Hikmat al-mutaaliya fi al-asfar al-aqliyyat al-arbaa* (Cild 1). Tehran: SIPRIn Publications.
9. Shirazi, S. (1383). *Sharh-e Usul-e Kafi* (M. Khajavi, Təşih., 2-ci çap, Cild 1, s.20). Tehran: Markaz-e Tahqiqat-e 'Olum-e Ensani va Motale'at-e Farhangi.
10. Shirazi, S. (1999). *Al-Mazahir al-Ilahiyyah* (S. J. Ashtiyani, Red.). Tehran: Sadra Islamic Philosophy Research Institute.
11. Shirazi, S. (ts.). *Kəsrul-Əsnamul-Cahiliyyə* (M. Cahangiri, Red).

## REFERENCES

1. Baghirov, I. (2025). The Soul-Body Problem: The Inconsistent Tetrad and Its Resolution in Sadr al-Din Shirazi’sPerspective. *History of Science Journal*, *6*(1), 126–136. https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.126-136 (in Azerbaijani)
2. Berhiye, E. (2001). *History of philosophy: The Middle Ages and the Renaissance period* (Y. Mahdavi, Trans., 2nd ed., 142–144). Tehran: Khwarazmi Publications. (in Persian)
3. Bréhier, É. (1926–1932). *History of philosophy* (Vols. 1–7). Paris: Presses Universitaires de France. (in French)
4. Malikov, A. (2019). The Analysis of Correlation between Reason and Belief in Sadraddin Shirazi philosophy. *Metafizika Journal*, *2*(1), 37–57. http://dx.doi.org/10.33864/MTFZK.2019.28 (in Azerbaijani)

**5.** Malikov, A., & Baghirov, I. (2022). The philosophical revolution of Sadr al-Din Shirazi. *Metafizika Journal*, 5(1), 10–24. http://dx.doi.org/10.13140/RG.2.2.25707.41767 (in Azerbaijani)
**6.** Shirazi, S. (1366 h.). *Commentary on the Qur'an*. Qom: Bidar. (in Persian)
**7.** Shirazi, S. (2004). *The transcendent philosophy of the four intellectual journeys* (Vol. 6). Tehran: SIPRIn Publications. (in Arabic)
**8.** Shirazi, S. (2004). *The transcendent philosophy of the four intellectual journeys* (Vol. 1). Tehran: SIPRIn Publications. (in Arabic)
**9.** Shirazi, S. (2004). *Commentary on Usul al-Kafi* (M. Khajavi, Ed., 2nd ed., Vol. 1, p.20). Tehran: Center for Humanities Research and Cultural Studies. (in Persian)
**10.** Shirazi, S. (1999). *The divine manifestations* (S. J. Ashtiyani, Ed.). Tehran: Sadra Islamic Philosophy Research Institute. (in Arabic)
**11.** Shirazi, S. (n.d.). *Breaking the idols of ignorance* (M. Cahangiri, Ed.). (in Arabic)